# Bakıda Dronqo kitab evi fəaliyyətə başlayacaq

## XALQ YAZIÇISI YAP GƏNCLƏRİ İLƏ GÖRÜŞÜB





Ötən gün Yeni Azərbaycan Partiyasında (YAP) partiyanın gənc üzvləri ilə Azərbaycan və müasir dünya ədəbiyyatında dedektiv romanları ilə oxucuların rəğbətini qazanan Xalq yazıçısı Çingiz Abdullayevin görüşü keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov yazıçı haqda qısa məlumat verərək bildirib ki, rus, ingilis, italyan dillərində sərbəst danışan Çingiz Abdullayevin Almaniyada, İrlandiyada, Fransada, Rusiyada kütləvi tirajla buraxılmış, 27 milyon nüsxədə olan 600-dən çox kitabı dünya ölkələrində yayılmışdır. GB sədri qeyd edib ki, müasir dünya ədəbiyyatında müxtəlif janrlarda ən çox əsər yazan, məhsuldar yazıçı kimi məşhurlaşan Ç.Abdullayev 194 adda kitabın müəllifidir.

Sonra gənclər qarşısında çıxış edən görkəmli yazıçı bildirib ki, millətin, xalqın, dövlətin gələcəyi vətəndaşların intellekt səviyyəsindən, təhsilindən, insan kapitalına verilən dəyərlərdən asılıdır: “İnsanın dünyagörüşü yüksək olduqca onun cəmiyyətdəki rolu, fəaliyyəti artır, mənsub olduğu xalqa daha çox fayda verə bilir.

Bunları şərtləndirən amillərdən ən başlıcası ölkədə ziyalı potensialının artmasıdır. Ziyalılığa aparan yol kitabla ünsiyyətdən başlayır. Bilik mənbəyi olan kitabla ünsiyyət insanı formalaşdırır, gələcəyə baxışını formalaşdırır.

İnsan nə qədər çox mütaliə edərsə , onun mənəviyyatı, dünya görüşü bir o qədər zənginləşir, nitqi, dünya hadisələrinə baxışı, təfəkkürü, fikir və düşüncələri təkmilləşir”.

Xalq yazıçısı yaradıcılığının əsas istiqamətlərindən, gələcək planlarından danışıb, gənclərə klassik və müasir yazıçılarımızın əsərlərini, dünya ədəbiyyatını oxumağı tövsiyə etdi, onların şəxsiyyət kimi formalaşmasında təhsilin əhəmiyyətinin vacibliyini vurğulayıb.

Çıxışından sonra Xalq yazıçısı gənclərin çoxsaylı suallarını cavablandırarkən bildirib ki, yaxın zamanda Bakıda Dronqo kitab evi fəaliyyətə başlayacaq.

✍ **Taleh Bağırov,**
**Vüsal Cahanov (foto),**
***”İki sahil”***